HISTORY OF SCIENCE AND SCIENCE OF SCIENCE

**Pages / Səhifələr: 45-58**
https://doi.org/10.59849/2788-9831.2025.2.45

# Üzeyir Hacıbəyli: milli maarifçilik fəaliyyəti və türkçülük ideyası kontekstində ideoloji yanaşmaların təhlili

*Uzeyir Hajibeyli: Analysis of Ideological Approaches in the Context of National Enlightenment Activities and the Idea of Turkism*

**Aynur Nəzərova/ *Aynur Nazarova***
*Department of History, Van Yuzuncu Yil University*
xubanova77@mail.ru

**ORCID ID**: 0000-0002 9735-3149

**Daxil oldu / *Received***: 20.08.2025

***Qəbul olundu / Accepted***: 15.09.2025

***Xülasə.*** Üzeyir Hacıbəyli XX əsrin əvvəllərində Azərbaycan musiqi mədəniyyətinin modernləşməsinə verdiyi fundamental töhfələrlə yanaşı, maarifçilik fəaliyyəti vasitəsilə dövrün ictimai və intellektual mühitinə də əhəmiyyətli təsir göstərmişdir. Məqalədə onun milli maarifçilik fəaliyyəti və türkçülük ideyası kontekstində formalaşan ideoloji baxışları təhlil edilir, bəstəkarın musiqi yaradıcılığı, publisistik iris, eləcə də maarif yönümlü təşəbbüslərinin milli özünüdərk, mədəni dirçəliş və türk dünyası ilə inteqrasiya proseslərinə təsiri araşdırılır.
Tədqiqat çərçivəsində həmçinin Hacıbəylinin yaşadığı dövrün siyasi, mədəni və ideoloji şəraiti ümumi şəkildə nəzərdən keçirilərək, onun türkçülük ideyasının yayılmasındakı rolunun elmi-tarixi konteksti müəyyənləşdirilir. Bu yanaşma Üzeyir Hacıbəylinin fəaliyyətinin yalnız musiqi tarixi baxımından deyil, həm də milli ideoloji inkişaf prosesində mühüm mərhələ kimi qiymətləndirilməsinə imkan yaradır. Məqalə tarixi-analitik yanaşma əsasında hazırlanmış, əsasən, Üzeyir Hacıbəylinin publisistik mətnlərinə, musiqi əsərlərinə və arxiv materiallarına istinad edilmişdir.

***Açar sözlər:*** Üzeyir Hacıbəyli, maarifçilik, türkçülük, milli ideologiya, publisistika

***Abstract.*** In addition to fundamental contributions to the modernization of Azerbaijani musical culture at the beginning of the 20th century, Uzeyir Hajibeyli also had a significant impact on the social and intellectual environment of the period through his educational activities. The article analyzes his ideological views formed in the context of his national educational activities and the idea of Turkism, and examines the impact of the composer's musical creativity, publicistic activity, as well as educational initiatives on the processes of national self-awareness, cultural revival, and integration with the Turkic world.
The research also provides a general overview of the political, cultural, and ideological conditions of the period in which Hajibeyli lived, and determines the scientific and historical context of his role in the spread of the idea of Turkism. This approach allows us to evaluate Uzeyir Hajibeyli's activities not only from the point of view of musical history, but also as an important stage in the process of national ideological development. The article is prepared on the basis of a historical-analytical approach, mainly referring to Uzeyir Hajibeyli's publicistic texts, musical works and archival materials.

***Key words:*** Uzeyir Hajibeyli, enlightenment, Turkism, national ideology, journalism

**Giriş**

XX əsrin əvvəlləri Azərbaycan tarixində milli özünüdərkin intensivləşdiyi, mədəni-mənəvi dirçəliş proseslərinin sürətləndiyi və yeni ideoloji istiqamətlərin formalaşdığı bir mərhələ kimi səciyyələnir. Bu dövrdə Cənubi Qafqaz və Osmanlı–Rusiya geosiyasi məkanı daxilində yaşayan türkdilli xalqlar arasında maarifçilik, modernləşmə və milli kimlik ideyaları geniş yayılmağa başlamışdır. Xüsusilə türkçülük ideyasının ideoloji diskursda ön plana çıxması, milli birlik və mədəni inteqrasiya çağırışlarının artması regionun intellektual mühitini müəyyən edən əsas tendensiyalardan biri olmuşdur. Bu dövrdə Azərbaycan ziyalıları, müsavatçılar, romantik və maarifçi demokratlar, eləcə də inqilabçı və sosial demokratlar rus çarizminin irtica və istibdad rejiminə, müstəmləkəçi siyasətinə qarşı birgə və çox kəskin mübarizə aparırdılar (Əhmədli, 2009: 254). Bu mühit milli ideoloji düşüncənin formalaşmasında və modern Azərbaycan intellektual elitasının təşəkkülündə həlledici rol oynamışdır.

Belə bir ideoloji və mədəni mühitdə Üzeyir Hacıbəyli yalnız Azərbaycan professional musiqi məktəbinin banisi kimi deyil, həm də milli maarifçilik hərəkatının fəal nümayəndəsi, cəmiyyətin ideoloji inkişafına yön verən ziyalı kimi çıxış edirdi. Onun publisistik fəaliyyəti, təhsil və mədəniyyət sahələrində təşəbbüsləri, eləcə də musiqi yaradıcılığı dövrün modernləşmə prosesləri ilə üzvi şəkildə bağlı idi və türk dünyası ilə mənəvi-siyasi bağlılığın gücləndirilməsi ideyasını daşıyırdı. Hacıbəyli üçün musiqi və publisistika estetik yaradıcılıq formalarından daha çox, ictimai şüurun, milli düşüncənin formalaşdırılması və ideoloji transformasiyanın vasitəsi kimi çıxış etmişdir.

Üzeyir Hacıbəylinin ideoloji baxışlarında müşahidə olunan türkçülük meyilləri milli həmrəylik, mədəni yaddaşın qorunması və Azərbaycan cəmiyyətinin türk dünyası ilə mənəvi-mədəni yaxınlığının gücləndirilməsi ideyaları ilə yanaşı milli kimliyin intellektual əsaslarının möhkəmləndirilməsinə də yönəlmişdir. Onun yaradıcılıq irsində milli ənənələrin elmi və estetik əsaslarla yenidən dəyərləndirilməsi, eyni zamanda milli mədəniyyətin regional və transmillî kontekstdə təqdim olunması xüsusi yer tutur.

Üzeyir Hacıbəyli üç tarixi mərhələnin – Rusiya imperiyası, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti və Sovetlər Birliyi dövrlərinin fikir və sənət xadimidir. Bu dövrlərin hər birində Üzeyir bəyin istedadı və yaradıcılıq potensialı onu mövcud siyasi və ideoloji cərəyanların fövqündə saxlamışdır. Lakin hər üç mərhələdə Üzeyir bəy yaradıcılığının dəyişməz xüsusiyyəti onun millətin maariflənməsinə, elmi, sosial və mədəni inkişafına yönəlmiş fəaliyyəti idi (Asker,

2023:426). Mövcud elmi ədəbiyyatda Üzeyir Hacıbəylinin xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövründəki türkçülük və milli ideya yönümlü fəaliyyəti uzun müddət sistemli şəkildə araşdırılmamışdır. Bu istiqamətdə kompleks tədqiqat imkanları, əsasən, Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra formalaşmağa başlamışdır. Bu gün Üzeyir Hacıbəylinin milli maarifçilik fəaliyyəti və türkçülük ideyası çərçivəsində formalaşan ideoloji baxışlarının tarixi-siyasi və mədəni kontekstdə dərindən tədqiq edilməsi yalnız Azərbaycan tarixinin və mədəniyyətinin anlaşılıb qiymətləndirilməsi baxımından deyil, həm də müasir dövrdə milli kimlik, təhsil və mədəniyyət sahələrində aktual problemlərin həlli istiqamətində də mühüm əhəmiyyət kəsb edir.

**Bioqrafik kontekst: Qarabağ mühitinin Üzeyir Hacıbəylinin formalaşmasına təsiri**

XX əsrin əvvəllərində Qarabağın zəngin tarixi-mədəni mühiti Üzeyir Hacıbəylinin şəxsiyyətinin və yaradıcılığının formalaşmasında həlledici rol oynamışdır. Qarabağın bəy nəslindən olan Hacıbəylinin atası Xurşidbanu Natəvanın mirzəsi, anası isə musiqiçi ailəsi olan Əliverdibəyovlar nəslindən idi (Nəbiyev, 2012: 15). Şuşa muğam məktəbinin yüksək peşəkarlıq səviyyəsi Hacıbəylinin milli musiqi təfəkkürünü formalaşdırmış, ona muğamın modal-struktur xüsusiyyətlərini dərindən mənimsəmək imkanı vermişdir. Bu zəmin bəstəkarın Şərq musiqisinin melodik-intonasiya zənginliyini Qərb musiqisinin forma, harmoniya və orkestr prinsipləri ilə birləşdirməyə yönəlmiş sintez modelinin formalaşmasına şərait yaratmışdır. Sözügedən sintez türkçülük ideologiyasındakı "milli ruh – müasir forma" prinsipinin praktik-estetik təcəssümü kimi qiymətləndirilə bilər.

Qarabağ mühitinin Üzeyir Hacıbəylinin erkən musiqi təcrübəsinə və estetik formalaşmasına təsiri onun yaxın ailə çevrəsinin xatirələrində də aydın şəkildə əks olunmuşdur. Bəstəkarın qardaşı Ceyhun Hacıbəyli "İlk Azərbaycan operası necə yarandı?" adlı məqaləsində bu mühitin formalaşdırıcı rolunu belə təsvir edir: "Mən qardaşım Üzeyirlə (o, məndən üç yaş böyükdür) gənc yaşlarımızdan musiqiyə maraq göstərdik. Qarabağın öz təbiəti, xüsusən rəsm kimi çəkilmiş paytaxtı Şuşa lirika və poeziya sahəsində romantizm və yaradıcı ilhamla bol idi. Ən istedadlı müğənni və sazəndələr əslən Qarabağdan olanlar idi... Bizim ana qohumları arasında dayıoğlular, dayımız və digərləri daxil olmaqla 4 nəfər xanəndə, 3 tarçı isə hörmətli şəxslərin xahişi ilə məclislərdə çıxış edirdilər. Qardaşım Üzeyirlə mənim çox gözəl səsimiz vardı və tezliklə təcrübə əsasında klassik musiqinin bütün incəliklərini öyrəndik..." (ARDƏİA, f.649).

Beləliklə, Qarabağın zəngin mədəni mühiti Hacıbəylinin eyni zamanda həm estetik görüşlərinin, həm də milli və türk dünyası ilə bağlı ideoloji baxışlarının formalaşmasına da geniş imkan yaratmışdır. Onun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin inkişafında və türk xalqlarının mədəni yaxınlaşması kontekstində strateji əhəmiyyət daşıyan irs kimi dəyərləndirilə bilər.

**Türkçülük tarixi: Azərbaycanın Türk dünyasındakı yeri və tarixi perspektiv**

XIX əsrin sonu – XX əsrin əvvəllərində Türk dünyasında modernləşmə və milli oyanış prosesi ilə paralel şəkildə Türkçülük ideyası geniş yayılmağa başlamışdı. Bu ideya dil birliyinin möhkəmləndirilməsi, mədəni yaxınlaşma, ümumtürk kimliyinin formalaşdırılması kimi məqsədləri əhatə edirdi.

Türklük ideyası milli fəlsəfi fikir tariximizdə əsas yer tutan bir anlayışdır. Türkçülük yalnız etnik kimliyin qorunması ilə bağlı deyil, həm də milli özünüdərk, özünütəyin və kollektiv şüurun təşəkkül tapması ilə əlaqələndirilən dərin fəlsəfi bir ideyadır. Türklük – bir millətin öz kimliyini müəyyən etməsi, tarixini, mədəniyyətini və dəyərlərini tanıması və onlara sadiq qalması anlamına gəlir. Türklük yalnız etnik mənsubiyyətin ifadəsi deyil, həm də bir mənəvi dəyər və milli birliyə əsaslanan, xalqın gələcəyinə yönəlmiş bir ideoloji hədəfdir. Azərbaycan milli ideologiyasının da təməlini təşkil edən bu ideya Azərbaycan xalqının dilini, mədəniyyətini və mənəvi dəyərlərini qorumaq və gələcək nəsillərə çatdırmaq məqsədini güdür.

Türkçülük axınının tanınmış nümayəndəsi Ziya Gökalp Türkçülüyün siyasi deyil, mədəniyyətlə əlaqəli olduğunu belə ifadə edir (Gökalp, 2009:167): "Türkçülük siyasi bir partiya deyil; elmi, fəlsəfi, estetik bir məktəbdir. Başqa sözlə, mədəni bir fəaliyyət və yeniləşmə yoludur". Yəni Türkçülük fəlsəfi və cəmiyyətə aid bir hərəkatdır. Bu hərəkatın əsas məqsədi milli mədəniyyəti axtarmaqdır (Ülken, 2006: 49).

Türkçülük ideyasını müzakirə edərkən yalnız bir ölkənin düşüncə tarixini və ziyalılarını nəzərə almaq kifayət etmir. Bu ideya həm Azərbaycanın, həm də Türkiyənin XIX–XX əsrləri əhatə edən tarixi və mədəni inkişafları ilə bağlı geniş bir kontekstdə qiymətləndirilməlidir. Bu dövrlərin ən mühüm simalarından bəziləri həm Azərbaycanın, həm də Türkiyənin elmi və mədəniyyəti tarixində böyük xidmətlər göstərmiş şəxsiyyətlərdir: Əli Suavi (1839-1878), Əli bəy Hüseynzadə (1864-1940), Əhməd bəy Ağaoğlu (1869-1939), Ziya Gökalp (1876-1924), Yusif Akçura (1879-1935) kimi ziyalılar hər iki ölkənin mədəniyyət və düşüncə tarixində dərin izlər

buraxmış, türklük ideyasının formalaşmasına mühüm töhfələr vermişlər. Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq düsturu ilk dəfə sistemsiz bir şəkildə Əli Suavi tərəfindən irəli sürülmüş, ikinci dəfə Əli bəy Hüseynzadə tərəfindən bu düstur sistemə salınmışdır. Azərbaycan mütəfəkkirinin təsiriylə Ziya Gökalp "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunu qəbul etmişdir. Bu düstur Ziya Gökalp vasitəsilə Məhəmməd Əmin Rəsulzadəyə təsir göstərmişdir. Azərbaycan bayrağında bu düstur – mavi, qırmızı və yaşıl rənglərində ifadə edilmişdir (Məmmədova, 2020: 75). Beləliklə, bu şəxslər türklük anlayışını müxtəlif aspektlərdən işləyərək milli kimlik və özünüdərk məsələlərini təbliğ etmiş, siyasi və mədəni müstəvidə türk birliyinin önəmini vurğulamışlar.

Bu geniş kontekstdə Üzeyir Hacıbəylinin yaradıcılıq və ictimai fəaliyyətində türkçülük ideyası təkcə siyasi-ideoloji məzmun daşımır, həm də mədəni modernləşmə strategiyasının fundamental elementlərindən biri kimi çıxış edirdi. Onun türkçülüyə münasibəti sırf siyasi xarakter daşımamış, əsasən, mədəni kimliyin qorunması və yenilənməsi, ictimai şüurun formalaşması və musiqi-estetik sistemin modernləşdirilməsi istiqamətində özünü göstərmişdir. Bu baxımdan, Hacıbəylinin türkçülük ideyasına yanaşması həm estetik, həm də maarifçilik aspektləri ilə Azərbaycan və ümumtürk mədəni inkişaf xəttində xüsusi yer tutur.

**Üzeyir Hacıbəylinin türkçülük ideyasına yanaşması: estetik və maarifçilik aspektləri**

Üzeyir bəyin türkçülük ideyasına yanaşması təkcə ideoloji mövqedən ibarət olmayıb, həm estetik yaradıcılıq sistemində, həm də maarifçilik fəaliyyətində mədəni modernləşməyə yönəlmiş kompleks bir model kimi ortaya çıxır. Onun fəaliyyəti sayəsində türk mədəniyyətinin həm milli özünəməxsusluğu qorunmuş, həm də müasir mədəniyyətlə inteqrasiyası üçün yeni bir düşüncə və yaradıcılıq platforması formalaşmışdır.

Yaradıcılığının bütün sahələrində milli ideologiyanı təcəssüm etdirən Hacıbəylinin fikrincə, maarifçilik milli oyanışın əsas şərtidir və bu oyanış öz növbəsində türk kimliyinin möhkəmlənməsinə gətirib çıxarır. O, savadsız və informasiya baxımından kasad bir xalqın nə mədəni, nə iqtisadi, nə də milli planda güclənə bilməyəcəyini dəfələrlə vurğulayırdı. Maarifçilik ideyası yalnız şəxsi inkişafı deyil, həm də kollektiv kimliyin modern düşüncə ilə yenidən qurulmasını nəzərdə tuturdu. Bu baxımdan, Üzeyir bəy maarifçiliyi Türkçülük ideologiyasının əsas hərəkətverici qüvvəsi kimi görürdü.

XX əsrin ilk on illiyində, yəni milli ideya xəttinin birmənalı olaraq ortaya çıxmadığı bir

dövrdə Hacıbəyli də bəzi ziyalılarımız kimi çarizmə qarşı mübarizə aparan cərəyanlar arasında tələb və məramına görə sosial-demokrat təliminə meyil göstərmişdir. Xüsusilə də 1-ci Rusiya inqilabi illərində (1905-1907) Hacıbəylinin yazılarında müəyyən qədər də olsa, "sosial-demokatizm"ə meyil hiss olunur. Məsələn, o, "Dövlət Dumasının qurulması" adlı silsilə məqalələrində solçu "sosial-demokrat" firqəsinə digər təşkilatlardan daha çox üstünlük vermişdir (Hacıbəyli, 2007:528). Hacıbəylinin sosial-demokrat təliminə meyilliyi uzun sürməmiş, xüsusilə də 1910-cu illərdən etibarən o, milli-demokrat cəbhəsində fəaliyyət göstərmişdir. Onun istər sosial-demokratizmə meyil göstərdiyi, istərsə də birmənalı şəkildə milli-demokratizm cəbhəsində olduğu dövrlərdə əsas diqqəti Qafqaz türklərinin, o cümlədən Quzey Azərbaycan türklərinin milli oyanışına, milli haqq və azadlıqların əldə olunmasına yönəltmişdir (Ələkbərli, 2018: 417). Uzaqgörən bir şəxsiyyət olaraq, o, türk xalqlarının inkişafını müasir təhsil sisteminin qurulması, musiqi məktəblərinin təşkili, elmi musiqi düşüncəsinin formalaşdırılması və milli mənlik şüurunun gücləndirilməsi ilə birbaşa əlaqədə dəyərləndirirdi. Bəstəkarın pedaqoji, publisistik və nəzəri fəaliyyəti bu məqsədlərin reallaşdırılmasına yönəlmiş sistemli bir maarifçilik proqramı kimi çıxış edirdi.

Ü.Hacıbəylinin "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığı, "Azərbaycan", "İrşad", "Tərəqqi" və "Həyat" qəzetlərində dərc olunan publisistik məqalələri onun türkçülük və maarifçilik mövqeyinin aydın ifadəsidir. Bu məqalələrdə o, xüsusilə dini fanatizmə, cəhalətə, qadın hüquqlarının məhdudlaşdırılmasına və sosial ədalətsizliyə qarşı çıxaraq, yeni tipli, dünyəvi təhsilin və milli şüurun formalaşmasının vacibliyini müdafiə edirdi. Türk xalqlarının birliyini isə hərbi-siyasi ittifaq kimi deyil, mədəni inteqrasiya, ortaq dil və mədəni dəyərlər əsasında formalaşan tarixi-mənəvi yaxınlaşma prosesi kimi dərk edirdi. Onun bu yanaşması türkçülük ideyasının maarifçi və mədəni yönümlü interpretasiyasına əsaslanırdı. 1909-cu ildə Bakıda nəşr olunan "Tərəqqi" qəzetində çalışdığı və mütəmadi olaraq məqalələrlə çıxış etdiyi dövrdə qələmə aldığı "Xəbərdarlıq" adlı yazı bu baxımdan diqqətəlayiqdir. Həmin məqalədə Üzeyir Hacıbəyli Azərbaycan türklərinin öz hüquqlarının və milli kimlik şüurunun qorunmasının yalnız elm və təhsil yolu ilə mümkün olduğunu əsaslandırırdı. Onun fikrincə, bir millətin inkişafı və sivil xalqlar sırasına daxil olması məhz bu iki amilin sistemli şəkildə inkişaf etdirilməsindən asılı idi (Hacıbəyli, 1909 :2). Müəllif yazıda xüsusi olaraq elm və təhsilin Azərbaycan türklərinə öz ana dillərində, yəni türk dilində tədris olunmasının milli məktəblərin möhkəmlənməsində və dilin millilik şüuru ilə inkişafında həlledici rol oynadığını vurğulayır. 1917-ci ildə "Doğru söz"

qəzetində yazdığı "Dil davası" məqaləsində rus dilinin türk dilini sıxışdıraraq onun yerini tutduğu barədə irəli sürülən iddialara qarşı çıxaraq bildirirdi ki, əgər türk dili milli məktəblərdə əsas tədris dili kimi məqsədyönlü və intensiv şəkildə tətbiq olunarsa, heç bir xarici dil ana dilinin yerini tuta bilməz (Hacıbəyli, 2010: 209). Beləliklə, Üzeyir Hacıbəyli üçün ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin qorunmasının və mədəni davamlılığın əsas təminatçısı idi.

Rusiya müsəlmanları arasında özünəməxsus milli kimliyə və milli dilə sahib Qafqaz türklərinin milli varlığını müdafiə edən Ü.Hacıbəyli onların ictimai-siyasi təşkilatlar yaratmasının zəruriliyindən də bəhs etmişdi. Onun fikrincə, milli-dini birliyin olmamasının nəticəsidir ki, Çarlıq Dövlət Dumasında Rusiya müsəlmanlarını, o cümlədən Qafqaz müsəlmanlarını siyasi qüvvə kimi tanımır, yerlərdə onların haqq və azadlıqlarını tapdalayırlar. O, buna misal kimi Qafqaz zemstvolarının (bələdiyyələrinin) yaradılmasının gecikdirilməsini, burada müsəlman türklərə mümkün qədər az yer verilməsi cəhdini göstərirdi (Ələkbərli, 2018: 421). Üzeyir bəy qeyd edirdi ki, "zemstvo" məsələsində gürcülər və ermənilər bu institusional imkandan maksimum dərəcədə yararlandıqları halda, Qafqaz müsəlmanları faktiki olaraq kənarda qalmışdır. Onun fikrincə, bu vəziyyət müsəlman cəmiyyətində passivlik və ictimai biganəliklə əlaqədar idi (Hacıbəyli, 2005: 94). Hacıbəyli vurğulayırdı ki, müsəlmanların hüquqlarını müdafiə edən azsaylı milli ziyalıların – Əhməd bəy Ağaoğlu, Qara bəy Qarabəyov, Əlimərdan bəy Topçubaşov və Nəriman Nərimanovun – müxtəlif yollarla ictimai-siyasi fəaliyyətdən uzaqlaşdırılması milli maraqların qorunmasını daha da zəiflətmişdir.

Üzeyir Hacıbəyli publisistik yazılarında qeyd edirdi ki, 1905-ci il Rusiya inqilabından sonra milli mətbuatın, təhsil ocaqlarının və maarifçi-xeyriyyə cəmiyyətlərinin inkişafı üçün müəyyən dərəcədə əlverişli imkanlar yaransa da, sonrakı onillik ərzində bu potensialdan səmərəli istifadə olunmamışdır. Bu durum müsəlman ziyalıları arasında intellektual və təşkilati əlaqələrin zəifləməsi, "Həyat", "İrşad", "Molla Nəsrəddin" kimi milli nəşrlərin, eləcə də "Səadət", "Nur" məktəblərinin və "Nicat" kimi mədəni-maarif cəmiyyətlərinin fəaliyyətinin məhdudlaşması ilə müşayiət olunmuş və Üzeyir bəydə narahatlıq doğuran məsələlərdən biri kimi ön plana çıxmışdır.

Üzeyir Hacıbəyli bu prosesin siyasi müstəvidə də əks olunduğunu qeyd edərək, 1905–1915-ci illərdə Qafqaz müsəlmanlarının Dövlət Dumasında müstəqil siyasi subyekt kimi tanınmamasını təsadüfi hesab etmirdi. Onun fikrincə, müsəlman fraksiyasının aydın siyasi

mövqeyə malik olmaması müxtəlif siyasi qüvvələr tərəfindən onun identifikasiyasını çətinləşdirmişdir. Bu baxımdan, Hacıbəyli çıxış yolunu Qafqaz müsəlmanlarının vahid milli mövqe ilə çıxış etməsində, milli özünüdərk və ictimai həmrəyliyin gücləndirilməsində görürdü.

Bu mövqeyi ilə Üzeyir Hacıbəyli milli-demokratik cərəyana ideya baxımından daha da yaxınlaşmış, xüsusilə "Müsavat" başda olmaqla milli təşkilatlarla əməkdaşlıq etməyə başlamışdı (Ələkbərli, 2018: 429). Azərbaycan xalqının milli istiqlala qovuşmasını tarixi zərurət kimi qiymətləndirərək partiyanın qurulmasında Məhəmmədəmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli kimi milli xadimlərlə bir cərgədə dayanmışdır. Xalq Cümhuriyyətinin aparıcı ideoloqlarından biri kimi istiqlalının birinci ildönümünə həsr etdiyi "Bir yaş" məqaləsində Hacıbəyli Azərbaycan Türk dövlətinin istiqlalının türk toplumunda milli kimlik şüurunu gücləndirdiyini, türklərin öz milli mənsubiyyətlərini yenidən dərk etməsinə stimul verdiyini vurğulayaraq Azərbaycan istiqlalını belə qiymətləndirirdi: "Biryaşlı dövlətimiz gələcəkdə türklüyün ümidgahı, islamlığın pənahı və aləmi-mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirməkdədir" (Azərbaycan qəzeti, 1919). Eyni zamanda fəaliyyətə başladığı "Azərbaycan" qəzetində Qarabağda baş verən hadisələri işıqlandıraraq erməni silahlılarının dinc müsəlman əhaliyə qarşı törətdiyi zorakılıqlara xüsusilə diqqət çakirdi. Qəzetin redaktoru olduğu müddətdə yazılarında erməni-daşnak qüvvələrini sərt şəkildə tənqid edir və kəskin anti-bolşevik mövqe sərgiləyirdi. Lakin onu da qeyd etmək gərəkdir ki, Üzeyir bəyi bu mövqeyə və düşüncə səviyyəsinə gətirən uzun illərə söykənən həyat yolu xeyli əvvəlki zamandan qaynaqlanırdı. Belə ki, 1904-cü Qori Seminariyasını bitirən Üzeyir bu təhsil ocağının qanunlarına görə ən azı 3 il məcburi işləməklə Qarabağın Hadrut - erməni kəndinə müəllim təyin olunur (ARDƏİA, f. 406, siy.2, s.v.107). Lakin bir ildən sonra, 1905-ci ildə erməni-müsəlman silahlı münaqişələrinin başlanması ilə Üzeyir bəy gözlənilməyən bir şəraitdə həmin kəndi tərk etməli olur: gecə vaxtı bir dəstə erməni kəndlisi azərbaycanlı müəllimi yuxudan oyadır və gözlənilən təhlükə qarşısında təcili Hadrutdan getməyi məsləhət bilirlər. Kəndlilər Üzeyir bəyi özləri ilə gətirdikləri ata mindirir və yandırdıqları məşələrlə ətrafı işıqlandıraraq onu Bakıya gedən yola çıxana kimi müşayiət edirlər. Bu hadisə, təbii ki, gənc Üzeyirin hafizəsində iz buraxmaya bilməzdi (Rüstəmova-Tohidi, 2025) və cəmi bir neçə ildən sonra, 1918-ci ildə, Qarabağda erməni üsyanları yeni qüvvətlə baş qaldırdıqda o, hökumət və cəmiyyətin bu hadisələrə reaksiya verməsini vacib hesab edərək vurğulayırdı ki, "Şübhəsizdir ki, hökumətimiz Azərbaycan türklərinə qarşı icra edilən və rəva görülən bu vəhşiliklərə göz yuma və istimdad (komək)

fəryadlarına qulaq asmaya bilməzdi. Hökumətimiz ingilis komandanlığının nəzərini dəxi bu günə, vəhşi əməllərə cəlb edib Andronikin əməli-vəhşiyanəsinə nəhayət çəkdirdi" (Azərbaycan qəzeti 1919: 2).

Hacıbəylinin 15 sentyabr 1918-ci ildə Ənvər Paşanın əmri və Nuru Paşanın komandanlığında bolşevik-erməni, daha sonra ingilis-erməni qoşunlarına qarşı vuruşmuş Qafqaz İslam Ordusunun Bakını azad etməsindəki rolu və əhəmiyyətini vurğulaması da bu dövrün siyasi və ideoloji mübarizələrinə dair ciddi əhəmiyyət kəsb edir.

Bakı şəhəri düşmən qüvvələrdən azad edildikdən sonra Azərbaycan Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü. Bu münasibətlə Nuru Paşa şərəfinə Bakıda böyük bir ziyafət təşkil olunmuşdu. Bəstəkar və mahir publisist Üzeyir bəy Hacıbəyli həmin ziyafəti reportaj üslubunda işıqlandıraraq, 12 noyabr 1918-ci il tarixli "Azərbaycan" qəzetinin 37-ci sayında "Ü. Əbdül" imzası ilə "Nuru Paşa həzrətləri şərəfinə böyük bir ziyafət" başlıqlı məqaləsini dərc etmişdir. Məqalə oxuculara ziyafətdən canlı təəssüratlar təqdim edir, Nuru Paşaya olan ehtiramı əks etdirir: Nuru Paşa həzrətlərinin salona virudi əsnasında musiqi orkestri tərənnümsaz olub məclis əhli səfbəsteyi-ehtiram durub, Paşa həzrətlərini səmimiyyətlə salamladılar; bədə hər kəsimiz başında özünəməxsus olan yerini tutub ziyafət başlandı. Yemək əsnasında Baş nazirimiz Fətəli xan Xoyski həzrətləri birinci olaraq bəliğ bir nitq söyləyib, Azərbaycan türklərini bəndi-əsarətdən xilas ilə naili-səadət olması yolunda tökülən Osmanlı türk qanına işarə ilə "bu qan və bu qan tökülən mübarək yerlər heç bir vəqt unudulmaz və xatirdən çıxmaz", — buyurdular (*Azərbaycan qəzeti*, 1918). "Nuru Paşa həzrətləri şərəfinə böyük bir ziyafət" tarixi mənbə kimi əhəmiyyətli olmaqla yanaşı, dövrün ictimai-siyasi kontekstində milli həmrəyliyin qorunmasına yönəlmiş mövqeni əks etdirir.

1918-ci ildə Üzeyir Hacıbəyli Əhməd Cavadın 1914-cü ildə yazdığı "Çırpınırdı Qara dəniz" şeirinə musiqi bəstələmişdir. Ədəbi və ictimai-siyasi düşüncədə milli ideyanın təbliğində mühüm rol oynamış şair bu şeiri Türkiyənin Birinci Dünya müharibəsində iştirakı, xüsusilə Türk döyüş gəmisi "Həmidiyyə"nin dəniz döyüşlərində qazandığı uğurlar və "Baxıb Türkün bayrağına" misrası ilə ifadə olunan milli həmrəylik ideyası kontekstində qələmə almışdır. Mahnının musiqisini isə Üzeyir Hacıbəyli Qafqaz İslam Ordusunun, Nuru Paşanın komandanlığı altında Azərbaycanda göstərdiyi qəhrəmanlıqlara ithaf etmişdi. Türkiyədə çox məşhur olan bu mahnı müəlliflərin pantürkçülükdə ittiham oluna biləcəyi səbəbinə görə 1920-ci ildən sonra uzun müddət Azərbaycanda səsləndirilməmişdir.

"Azərbaycan" qəzetinin 4 aprel 1919-cu il tarixli sayında dərc olunmuş xəbərdə Üzeyir bəyin "Arşın mal alan" operasının səhnələşdiriləcəyi bildirilir, növbəti məlumatda isə yeni himndən bəhs olunur: "Səhnə başlamazdan əvvəl Üzeyir bəyin yeni bəstələdiyi "Azərbaycan Milli Himni" oxunacaq" (*Azərbaycan* qəzeti, 1919:1).

İstənilən xalqın düşüncəsində milli marşları onun mili birliyinin təşəkkülü üçün zəruri sayılır. 1918-ci il Azərbaycan Xalq Cumhuriyyəti qurulur. Bu zaman Xalq Maarif Nazirliyi hökumətin tələbi ilə milli himnin və dövlət gerbinin hazırlanması haqqında rəsmi təkliflərini təqdim edir. Bu barədə ilk dəfə hökümətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin (rusca) 14 Noyabr 1919-cu il tarixli sayında bəhs olunur. Məlumatda bildirilir ki, Xalq Maarif Nazirliyi himnin yaradılması üçün müsabiqə elan edilməsini, müsabiqəyə himn layihələrinin 1920-ci il fevralın 1-nə qədər təqdim olunmasını, ən yaxşı himnə görə isə 15 min rubl miqdarında mükafat verilməsini məqsədəuyğun hesab etmişdir. Və Üzeyir Hacıbəyovun bəstələdiyi marş himn olaraq seçilir. Lakin Dövlət himninin qəbulu sahəsində bu kimi addımlar atılsa da, rus-bolşevik istilası bu ideyanın tam şəkildə gerçəkləşdirilməsinə (himnimiz təsdiq oluna bilmədi) imkan vermir (https://www.azerbaijans.com/content_975_az.html).

Üzeyir Hacıbəylinin musiqi yaradıcılığında müşahidə olunan türkçülük ideyalarının incə izləri onun daha erkən yaradıcılıq mərhələlərinə, xüsusilə 1908-ci ilə – "Leyli və Məcnun" operasının meydana gəldiyi dövrə qədər uzanır. Həmin il Bakının ictimai-mədəni həyatında baş verən hadisə yalnız teatr tarixində deyil, bütövlükdə türk-müsəlman dünyasının mədəni inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Yanvarın 25-də Tağıyev teatrında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının səhnəyə qoyulacağı barədə afişalarda verilən elan milli musiqi mədəniyyətinin yeni ideoloji və estetik istiqamətini nümayiş etdirirdi. Bu tamaşa ilə ilk müsəlman operasının yaranması faktı milli özünüdərk və maarifçilik ideyalarının sənət vasitəsilə reallaşdırılmasının bariz nümunəsi olmuşdur.

Türkçülük ideologiyası kontekstində "Leyli və Məcnun" operası milli dilin, xalq musiqisinin və ortaq türk mədəni yaddaşının qorunub inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Üzeyir Hacıbəyli bu əsərlə türk xalqlarının mədəni potensialını sübut etmiş, onların musiqi yaradıcılığının Avropa sənət formaları ilə sintezinin mümkünlüyünü göstərmişdir. Məhz bu səbəbdən "Leyli və Məcnun" operası türk musiqi tarixinin məhək daşı kimi dəyərləndirilir və milli maarifçilik ideyalarının sənət müstəvisində təcəssümü hesab olunur.

Ü.Hacıbəylinin yaradıcılığında Türkçülük ideyasının digər parlaq ifadəsi "Koroğlu"

operasıdır. Burada qəhrəmanlıq, ədalət uğrunda mübarizə, milli ruhun yüksəlişi kimi motivlər türk epik ənənələrinə uyğun işlənmişdir. Opera həm musiqi, həm dramaturji, həm də ideoloji baxımdan Türk dünyasının qəhrəmanlıq modelini yeni estetik müstəviyə çıxarır. Hacıbəyli xalq musiqisi və muğamın milli ruhunu qoruyaraq onları Avropa harmoniyası və opera prinsipləri ilə sintez etmiş, beləliklə milli musiqinin modernləşməsinə və Türk dünyasında yeni musiqi düşüncəsinin formalaşmasına zəmin yaratmışdır. 1937-ci ildə Azərbaycan Opera və Balet Teatrında ilk dəfə səhnələşdirilən "Koroğlu"da Üzeyir Hacıbəyli aşıq musiqisini klassik opera janrına inteqrasiya edərək 30-cu illərdə milli musiqi alətləri – saza, tara və kamançaya qarşı kampaniya aparan bəzi siyasi rəhbərlərə layiqli cavab vermiş oldu. O, bəstələdiyi musiqi əsərlərində bu musiqi alətləri üçün partiyalar yazırdı. 1939-1948-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının direktoru olan Hacıbəyli bu dövrdə həm də Azərbaycan Bəstəkarlar İttifaqının sədri idi (Əhmədov, 2006: 198). Eləcə də dramatik janrın xüsusiyyətlərini dərindən mənimsədiyi və operettalarının bütün personajlarını real həyatdan götürdüyü üçün dahi bəstəkar əsərlərində, o cümlədən "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911) və "Arşın mal alan" (1913) musiqili komediyalarında qabaqcıl ideyaları təbliğ edərək, onları ideologiyalaşdırmağa nail ola bilmişdi. Bu əsərlərində milli adət-ənənələr, türk ailə modeli, cəmiyyətin daxili ziddiyyətləri və modernləşməyə ehtiyacı komik və dramatik vasitələrlə təqdim olunur. Burada əsas məqsəd cəmiyyəti düşünməyə və dəyişməyə sövq etmək idi.

Üzeyir Hacıbəyli Çar Rusiyası və Cümhuriyyət dövründə ideoloji baxışlarını, əsasən, açıq şəkildə ifadə edə bilirdisə, Sovet hakimiyyəti illərində bu mövqenin ifadə üsulları dəyişmiş və daha çox dolayı, adaptiv strategiyalarla müşayiət olunmuşdur.Sovet ideoloji sistemi çərçivəsində milli və türkçülük yönümlü diskurslar rəsmi mədəni siyasətin nəzarət mexanizmləri ilə tənzimlənir, bu ideyaların açıq ifadəsi isə "millətçilik" anlayışı kontekstində problemli sayılırdı. Üzeyir Hacıbəylinin Sovet dövrü yaradıcılığı da bu baxımdan ideoloji transformasiya və mədəni adaptasiya prosesinin nümunəsi kimi dəyərləndirilə bilər.

Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet rejimi şəraitində fəaliyyətini davam etdirən türkçü ziyalılara münasibətdə formalaşan tənqidi diskurs artıq ilk illərdən mətbuat və mədəni platformalarda özünü göstərməyə başlamışdı. Bu diskurs Üzeyir Hacıbəylinin yaradıcılığına da tətbiq edilmiş, əsasən, onun səhnə əsərləri üzərindən ideoloji xarakterli qiymətləndirmələrlə müşayiət olunmuşdur. "Kommunist" qəzetinin 12 sentyabr 1920-ci il tarixli sayında "Mees" imzası ilə dərc edilmiş yazıda "Leyli və Məcnun" kimi əsərlərin Azərbaycan

operasının inkişafına mane olduğu iddia edilir və Xalq Maarif Komissarlığından türk mədəni irsinin sovet estetik prinsipləri əsasında yenidən formalaşdırılması tələb olunurdu (Mamedov, 2024: 50). Bu tip mövqelər Sovet ideoloji siyasətinin milli və türkçülük yönümlü mədəni irsə qarşı formalaşdırdığı mənfi münasibətin bariz nümunəsi kimi qiymətləndirilə bilər.

Üzeyir Hacıbəylinin fəaliyyəti Sovet dövründə həyata keçirilən kütləvi maarifləndirmə siyasəti çərçivəsində formalaşmış və bu sahədə göstərdiyi xidmətlər elmi ədəbiyyatda geniş şəkildə işıqlandırılmışdır. 1921-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Dövlət Türk Musiqi Məktəbi yaradılmış, 1926-cı ildə bu məktəb Azərbaycan Dövlət Konservatoriyası ilə birləşdirilmişdir. 1927-ci ildə Üzeyir Hacıbəyli və Müslüm Maqomayev tərəfindən tərtib edilmiş "Azərbaycan türk xalq mahnıları" məcmuəsi harmonizə olunmuş xalq mahnılarının ilk nəşri olmaqla, Azərbaycan musiqi mədəniyyətinin elmi əsaslar üzərində inkişafına mühüm təsir göstərmişdir. Beləliklə, onun türkçülük və Azərbaycan türkçülüyü məsələsində tutduğu ideoloji mövqe 27 aprel işğalından sonra da mahiyyət etibarilə, əsasən, dəyişməz qalmış, yalnız mövcud siyasi-ideoloji şəraitə uyğun olaraq ifadə formalarında müəyyən transformasiyaya məruz qalmışdır.

**Nəticə**

Bu məqalədə Üzeyir Hacıbəylinin yaradıcılıq və ictimai fəaliyyəti Azərbaycan milli-mədəni modernləşməsi kontekstində ideoloji aspektlər baxımından qiymətləndirilir. Təhlil nəticəsində müəyyən edilmişdir ki, Hacıbəyli musiqi yaradıcılığı və publisistik fəaliyyəti vasitəsilə estetik istehsalı milli maarifçilik və türkçülük ideyalarının daşıyıcısına çevirmiş, mədəniyyət sahəsini ideoloji diskursun əsas ifadə müstəvisi kimi formalaşdırmışdır. Bu baxımdan, onun fəaliyyəti sənət və ideologiya arasında qarşılıqlı təsir mexanizmini nümayiş etdirən konseptual model kimi dəyərləndirilə bilər.

Araşdırma göstərir ki, Hacıbəylinin türkçülük yanaşması mədəni-maarifçi xarakter daşımış, dil, musiqi və təhsil vasitəsilə ümumtürk identikliyinin formalaşdırılmasını strateji məqsəd kimi irəli sürmüşdür. "Leyli və Məcnun" operasından başlayaraq xalq mahnılarının harmonizasiyası və konservatoriya fəaliyyəti türkçülük ideyalarının mədəni və maarifçi vasitələrlə həyata keçirilməsinin nümunəsi olmuşdur. Milli melodik strukturların sistemli şəkildə istifadəsi həm Azərbaycan mədəniyyətinin reprezentasiyasını təmin etmiş, həm də ümumtürk mədəni inteqrasiya ideyasının estetik kodlaşdırılmasına xidmət etmişdir.

Nəticə etibarilə, Üzeyir Hacıbəylinin irsi milli kimliyin qorunması ilə mədəni modernləşmənin uzlaşdırılmasının elmi əsaslandırılmış nümunəsi kimi çıxış edir və onun fəaliyyəti Azərbaycan milli düşüncə tarixində yalnız musiqişünaslıq deyil, eyni zamanda ideologiya və mədəni modernləşmə araşdırmaları üçün metodoloji əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Asker, A. (2023). *Azerbaycan Türklerinin Düşünce hayatında Üzeyir Hacıbeyli*. Azerbaycan Düşünce Tarihi.
2. "Azərbaycan" qəzeti (1918). №37.
3. "Azərbaycan" qəzeti. (1919, 4 aprel). №150.
4. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. Fond №649.
5. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. Fond №406, siy.2, s.v. 107.
6. Əhmədli, R. (2009). *Azərbaycan dövlətçilik fəlsəfəsi*. Bakı: Təknur.
7. Əhmədov, S. (2006). *Azərbaycan tarixindən yüz şəxsiyyət*. Bakı: Ayna Mətbu Evi.
8. Ələkbərli, F. (2018). *Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX–XX əsrlər). II hissə*. Bakı: Elm və təhsil.
9. Gökalp, Z. (2009). *Türkçülüğün Esasları*. (Birinci Baskı). Konya: Tuna Yayınları.
10. Hacıbəyli, Ü. (1909, 14 avqust). "Xəbərdarlıq", *Tərəqqi*, №182.
11. Hacıbəyli, Ü. (1919, 25 may). "Bir yaş", *Azərbaycan*, №190.
12. Hacıbəyli, Ü. (1919, 31 mart). "31 Mart", *Azərbaycan*, № 147, s.2.
13. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri*. İki cilddə. II cild. Bakı: Şərq-Qərb.
14. Hacıbəyli, Ü. (2007). *Dövlət Dumasının qurulması*. Azərbaycan publisistikası antologiyası. Bakı: Şərq-Qərb.
15. Hacıbəyli, Ü. (2010). *Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri*. Bakı: Elm.
16. Mamedov, E. (2024). *Türkçü Bestekâr Üzeyir Hacıbeyli*. Türk Dünyası Tarih Kültür Dergisi.
17. Məmmədova, A. (2020). *Azərbaycanın türk dünyasındaki mövqeyinə tarixi baxış*. Millî Kültür Araştırmaları Dergisi (MİKAD), Cilt 4 / Sayı 1.

18. Nəbiyev, B. (2012). *Üzeyir Hacıbəylinin ömürnaməsi (fraqmentlər)*. Bakı: Şərq-Qərb.
19. Rüstəmova-Tohidi, S. (2025, 02 oktyabr). *Məlum və Naməlum Üzeyir Hacıbəyov*, 525-ci qəzet.
20. Ülken, H. (2006). *Ziya Gökalp*, Birinci Baskı, İstanbul: Türkiye İş Bankası Kültür Yayınları. https://www.azerbaijans.com/content_975_az.html